

## Vüsal Hətəmov

# 44

Ata, ay ata, 4- 4, neçədir?
– Sual verdi qazi atasına uşaq.
Düşündü bir qədər dərindən ata,
Axı necə desin bunu yumşaq?!

Axı bu adi rəqəm deyildi ki,
“44” rəqəmi deyə bilsin.
44-ün içində nələr vardır,
Rəqəm adlı pərdəni necə silsin?!

44-də neçə-neçə igidlər yatır,
Ömürlərini bu rəqəmdə bitirmişlər.
Neçə-neçə qorxmaz, qəhrəman qazilər,
Ayaq-qollarını bu rəqəmdə itirmişlər.

Bu həm dərdli, həm məğrur qoşa rəqəmlər,
Şəhid analarının ümid yeridir,
Hər gün analara, ahəstə, xısın-xısın, ağlayaraq,
Deyir ki, sevinin, balalarınız diridir.

Nişanlıların üzük qaşıdır bu rəqəmlər,
Bu rəqəmdən dillənir saf yarımçıq sevgilər.
Bu rəqəmlərlə xatırlanır hər xatirənin,
İçindəki ən ülvi nakam, sirli cizgilər...

Dilləndi ata: Oğul, bu adi rəqəm deyil,
Tarix yatır bu rəqəmin mətnində.
Bir xalqın tamarzı qaldığı,
Şanlı tarixi gəzdirir bətnində.

Zəngilan, Qubadlı, Laçın var bu rəqəmdə.
Fizuli, Cəbrayıl, Hadrut, Xocavənd,
Kəlbəcər, Suqovuşan, Ağdam var,
Dağ-dərə, şəhər-qəsəbə, neçə də kənd.

Sevindirir Cavanşirin, Babəkin ruhunu,
Bu rəqəm Şah İsmayılı canlandırır.
Nadirin, Cavadın səsidir bu rəqəm,
Mənfur düşmənə öz yerini qandırır..

Türküstan.-2023.-16-22 may.-S.11.